# MEHDİYEV FAZİL UMUD OĞLU



Mehdiyev Fazil Umud oğlu 20 avqust 1966-cı ildə Laçın rayonunun Ələçi kəndində doğulmuşdur. O, körpə olarkən, ailəsi Ağdam rayonunun Abdal-Gülablı kəndinə köçmüşdür. Fazil bu kənddə 1973-1983-cü illərdə orta məktəbdə təhsil almışdır. 1984-86-cı illərdə hərbi xidmətdə olmuşdur. Sverdlovsk şəhərində hərbi xidmətini nümunəvi başa vurub, ailəsinin yaşadığı Abdal-Gülablı kəndinə qayıtmışdır. Bir müddət burada qaldıqdan sonra işləmək üçün Rusiyaya gedir. Qısa müddət sonra doğma vətənə qayıtmış, burada sürücülük peşəsinə yiyələnmişdir. O, Abdal-Gülablıda yerləşən sanatoriyada sürücü işləyirdi. Bu vaxtlar erməni yaraqlılarının Azərbaycan torpaqlarına təcavüzü başlanmışdır. O, 1990-cı ildə Ağdam rayon Daxili İşlər Şöbəsində yaradılmış polis batalyonuna yazılmışdı. 1991-ci ildə Ağdərənin Canyataq, Mehmanə, Qazançı, Sırxavənd kəndlərində gedən qızğın döyüşlərdə iştirak etdi. Qaradağlı kəndində ayağından ağır yaralandı. Yarası hələ tam sağalmamış döyüş yoldaşlarının yanına qayıtdı. F.Mehdiyev 1991-ci ilin avqustunda ermənilərin “Niva” markalı bir maşınını ələ keçirib, Ağdam Rayon Polis Şöbəsinə təhvil vermişdir. 1991-ci il sentyabrın 23-dən 24-nə keçən gecə ermənilər böyük qüvvə ilə Abdal-Gülablı kəndinə hücuma keçmişdilər. O, dostu Salehlə maşına minib köməyə tələsmiş, lakin yolda ermənilərin pusqusuna düşərək faciəli surətdə həlak olmuşdular. F. Mehdiyev Ağdam rayonunun “Qarağacı” qəbristanlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Mehdiyev Fazil Umud oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakının Nəsimi rayonunda büstü qoyulmuşdur. Səbail rayonunda isə onun adına küçə var.